AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Ermənistanın interneti Azərbaycandan keçəcək

indicə




İnternet server

Ermənistanın beynəlxalq internet trafiki Azərbaycan üzərindən tranzit olunacaq. "AzerTelecom" MMC bu gün, iyunun 22-də, "Telecom Armenia" şirkəti ilə bu barədə müqavilə imzaladığını açıqlayıb. Bildirilir ki, bununla da **Ermənistanın beynəlxalq internet bağlantısı Azərbaycan üzərindən təmin ediləcək.**

Şirkətdən verilən məlumata görə, bu cür razılaşmalar regionda bağlantı marşrutlarının diversifikasiyasına, telekommunikasiya şəbəkələrinin etibarlılığının artırılmasına və bu sahədə əməkdaşlığın inkişafına xidmət edir.

2008-ci ildə yaradılmış "AzerTelecom" MMC Azərbaycanı beynəlxalq internet şəbəkəsinə birləşdirən magistral internet operatorudur.

Ötən əsrin 80-ci illərində gərginləşən Qarabağ münaqişəsi Azərbaycanla Ermənistan arasında toqquşmalara səbəb olmuş, 1990-cı illərin əvvəllərində isə Azərbaycanın Qarabağ bölgəsi və ətrafdakı yeddi rayonu işğal edilmişdi. 2020-ci ildə 44 günlük müharibə və 2023-cü ildəki birgünlük hərbi əməliyyatlar nəticəsində Bakı bütün ərazilərində suverenliyini tam bərpa edib.

Keçən il avqustun 8-də 30 ildən çox münaqişədə olan Azərbaycan və Ermənistan rəsmiləri Vaşinqtonda sülh müqaviləsinin mətnini paraflayıblar. Paraflanmış mətndə tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyır, həmçinin qarşılıqlı iddialardan imtina olunacağı vurğulanır.

Artıq iki ölkə arasında yükdaşımalar da bərpa edilib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur